

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU


AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 26 sentyabr 2026-cı il №67 (3069) https://mod.gov.az Qiymətı 30 qəpik


## Qazaxıstan Respublikasının Prezidenti Zati-aliləri cənab Kasım-Jomart Tokayevə

Hörmətli Kasım-Jomart Kemeleviç,

Manqistau vilayətində keçirilən hərbi təlimlər zamanı hərbçilərin həlak olması barədə xəbər bizi son dərəcə sarsıtdı.

Bu ağır anlarda kədərinizi bölüşür, baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Qazaxıstan xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 25 sentyabr 2026-cı il

## Azərbaycan müdafiə naziri Qazaxıstan tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Qazaxıstan Respublikasının müdafiə naziri general-leytenant Dauren Kosanova başsağlığı ünvanlayıb.

Başsağlığında deyilir: “Xəzər dənizində təlimlər zamanı doqquz nəfər hərbi qulluqçunun dənizə düşərək həlak olması, bir nəfərin yaralanması, yeddi nəfərin itkin düşməsi barədə xəbər məni dərindən kədərləndirdi. Bədbəxt hadisə nəticəsində həlak olanlara rəhmət diləyir, onların yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verirəm. Yaralanan hərbi qulluqçuya isə tezliklə sağalması üçün şəfa diləyirəm. Axtarış-xilasetmə əməliyyatlarının müsbət nəticələr verəcəyi ümidindəyəm. Allah rəhmət eləsin.”

## “Bu Qələbəni bizə bəxş edən qəhrəman əsgər və zabitlərimiz bizim qürur mənbəyimizdir”

***2020-ci il sentyabrın 27-də Azərbaycan tarixinin ən mühüm səhifələrindən birinin əsası qoyuldu. Həmin gün başlayan İkinci Qarabağ müharibəsi 30 ilə yaxın davam edən işğala son qoyulması, ərazi bütövlüyümüzün bərpası və illərlə doğma yurdlarına qayıtmaq həsrəti ilə yaşayan minlərlə insanın arzusunun gerçəkləşməsi ilə nəticələndi. Lakin bu Zəfərin başlanğıcında ağır döyüşlər, böyük fədakarlıq və Vətən uğrunda canından keçən şəhidlərimizin müqəddəs qanı dayanırdı. Məhz buna görə 27 sentyabr xalqımız üçün həm Böyük Qələbəyə gedən yolun başlanğıcı, həm də bu yolda canlarını düşünmədən fəda edən şəhidlərimizin əziz xatirəsinin yad edildiyi gündür.***



Artıq altı ildir ki, biz bu müqəddəs günü qürurla yanaşı, kövrək duyğularla qarşılayırıq. Bu gün həm də yaddaş günüdür - dünənimizi xatırlamaq, unutmamaq, şəhidlərimizin müqəddəs xatirəsini ehtiramla yad etmək günü.

Ermənistanın Azərbaycana qarşı uzun illər ərzində apardığı düşmənçilik siyasəti xalqımız üçün ağır nəticələr doğurdu. Tarixi Azərbaycan torpaqları olan Qarabağa ermənilərin Çar Rusiyası dövründə köçürülməsi ilə başlayan proses sonrakı mərhələlərdə xalqımıza qarşı ərazi iddialarına, etnik ayrı-seçkiliyə, deportasiyalara və zorakılığa çevrildi.

Erməni millətçiliyi üzərində qurulan siyasət müxtəlif tarixi mərhələlərdə azərbaycanlı əhalinin öz doğma torpaqlarından sıxışdırılması və qovulması ilə müşayiət olundu. 1905-1907-ci və 1918-ci illərdə baş verən qanlı hadisələr zamanı soydaşlarımızın kütləvi şəkildə qətlə yetirilməsi, yaşayış məntəqələrinin dağıdılması xalqımızın yaddaşında silinməz izlər buraxdı.

1918-1920-ci illər ərzində İrəvan, Dərələyəz, Zəngəzur, Göyçə, Naxçıvan, Bakı, Gəncə, Şamaxı, Quba, Qarabağ və digər ərazilərdə azərbaycanlı əhaliyə qarşı törədilən qətliamlar, yaşayış məntəqələrinin dağıdılması və insanların doğma yurdlarından didərgin salınması bu siyasətin faciəli nəticələri idi.

**(Ardı 3-cü səhifədə)**

## ANAMA: Azərbaycanda minatəmizləmə müasir texnologiyalar əsasında həyata keçirilir

Azərbaycanda humanitar minatəmizləmə fəaliyyəti dünyada mövcud olan ən müasir və qabaqcıl texnologiyalardan istifadə edilməklə Beynəlxalq Minatəmizləmə Standartlarına uyğun həyata keçirilir.

Bu barədə Azərbaycan Minatəmizləmə Agentliyinin (ANAMA) AZƏRTAC-ın sorğusuna cavab olaraq verdiyi məlumatda bildirilib.

Qeyd edilib ki, minatəmizləmə əməliyyatları zamanı mina və partlayıcı qurğuların aşkar edilməsi üçün müxtəlif növ detektor və maqnit-lokatorlardan, dərin axtarış cihazlarından, sahələr üzrə coğrafi koordinatların dəqiq müəyyənləşdirilməsi məqsədilə DGPS avadanlıqlarından, həmçinin tədqiqat və təmizləmə əməliyyatlarında xüsusi təyinatlı mexaniki minatəmizləmə maşınlarından, ərazinin dəqiq öyrənilməsi və tədqiqi məqsədilə pilotsuz uçuş aparatlarından istifadə edilir.

“Minatəmizləmə zamanı süni intellekt əsaslı qərarvermə prosesi təhlükəsizlik amilləri ilə bilavasitə əlaqədar olduğu üçün, ANAMA bu məsələyə perspektivli texnologiya kimi, lakin ehtiyatla yanaşmaqdadır. Minatəmizləmə fəaliyyəti çərçivəsində süni intellektin tətbiqi ilə əlaqədar hazırda mütəxəssislərimiz tərəfindən beynəlxalq təcrübə öyrənilməkdə və bunun tətbiqi üçün müvafiq zəmin yaradılmaqdadır. Eyni zamanda, bu sahədə yeni texnologiyaların araşdırılması məqsədilə Agentlik müxtəlif beynəlxalq sergi və tədbirlərdə iştirak edir”, - deyə məlumatda diqqətə çatdırılıb.




Həmçinin vurğulanıb ki, ümumiyyətlə, müasir texnologiyalar insan əməyini tam əvəz etməkdən daha çox, onun təhlükəsizliyini artırır, insan gücünü aşan fiziki işlərdə dəstək olur, əməliyyatların dəqiqliyini və səmərəliliyini yüksəldir.

## Ölüm qatarından həyata doğru

Bəzən bir fotoşəkil uzun illərin tarixini bir neçə saniyəyə sığdıra bilir. Baxdığımız bu görüntü də belə fotolardandır. İlk baxışda qarşımızda qaçan bir qadın və onun əlindən tutduğu balaca uşaq görünür. Arxa planda isə bir neçə insan, dəmir yolu vaqonları və sakit təbiət diqqəti cəlb edir. Lakin bu adi mənzərə deyil. Bu foto İkinci Dünya müharibəsinin ən ağır səhifələrindən birinin son anlarını əks etdirir.

Şəkil 1945-ci il aprelin 13-də Almaniyanın Farsleben kəndi yaxınlığında çəkilib. Həmin gün burada nasistlərin düşərgələrdən birinə apardığı qatar dayanmışdı. Vaqonların içində təxminən 2500 yəhudi məhbus vardı. Onların arasında yüzlərlə uşaq da var idi. İnsanlar Bergen-Belsen düşərgəsindən Theresienstadt istiqamətində aparılırdılar. Onların taleyi isə demək olar ki, əvvəlcədən müəyyən edilmişdi. Bu, adi sərnişin qatarı deyildi. İnsanlar ağır şəraitdə, aclıq və xəstəlik içində vaqonlara doldurulmuşdular.

**(Ardı 8-ci səhifədə)**

## “Birliyin Gücü-2026” birgə hərbi təlimi uğurla davam edir



Azərbaycan, Türkiyə və Özbəkistan hərbi qulluqçularının iştirakı ilə ölkəmizdə keçirilən “Birliyin Gücü-2026” birgə hərbi təliminin komanda-qərargah məşqləri keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, İştirak edən bölmələrin qərargah fəaliyyətinin, o cümlədən komandirlərin qərarqəbuletmə və bölmələri idarəetmə bacarıqlarının təkmilləşdirilməsi məqsədilə keçirilən məşqlərdə qərargahların müəyyən edilmiş ərazilərdə açılaraq yerləşdirilməsi, maskalanması və fəaliyyətlərinin təşkili üzrə tədbirlər həyata keçirilib.

Təlimdə icra olunacaq epizodlara uyğun olaraq Xocavənd rayonunda yerləşən "Qızılqaya", Naxçıvan Muxtar Respublikasında yerləşən "Qarabağlar" Təlim mərkəzlərində, eləcə də Xəzər dənizinin ölkəmizə aid akvatoriyasında yerləşən "Böyük Zirə" təlim sahəsində komandirlər tərəfindən yaranmış vəziyyətin qiymətləndirilməsi, təhlili və qərarların qəbul edilməsi üzrə tapşırıqlar yerinə yetirilib.

Məşqlərdə əsas diqqət iştirakçı ölkələrin hərbi qulluqçuları tərəfindən tapşırıqların birgə icrası zamanı qarşılıqlı uzlaşmanın effektivliyinin artırılmasına yönəldilib.

* * *

Azərbaycan Respublikasında keçirilən “Birliyin Gücü-2026” birgə hərbi təlimində məşqlər uğurla davam edir.

Müvafiq plana uyğun olaraq, iştirakçı ölkələrin hərbi qulluqçuları müxtəlif təlim-döyüş ssenariləri üzrə praktiki tapşırıqları icra edirlər.

**(Ardı 2-ci səhifədə)**

# Müdafiə Nazirliyinin rəhbərliyi təlimdə məşqlərin gedişatını izləyib







Müdafiə Nazirliyinin rəhbərliyi üç ölkənin hərbi qulluqçularının iştirakı ilə ölkəmizdə keçirilən "Birliyin Gücü-2026" birgə hərbi təlimində məşqlərin gedişatını izləyib.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə rəhbər heyət təlim üzrə yaradılan vahid qərargahda birgə əməliyyatların planlaşdırılması və icrası ilə bağlı komandir heyətinin qərarlarına dair məruzələrini dinləyib.



Sonra təlim ərazisində açılan səhra hospitalında olan müdafiə naziri general-polkovnik Zakir Həsənova məruzə olunub ki, NATO-nun 2-ci səviyyəli tibbi yardım standartlarına uyğun müasir avadanlıqlarla təchiz edilmiş mobil səhra hospitalı xəstə və yaralıların qəbuluna tam hazırdır.

Daha sonra Nazirliyin rəhbər heyəti təlim iştirakçıları üçün yaradılan sosial-məişət şəraiti və təminat məsələləri ilə maraqlanıb, yataqxanada və yeməkxanada olub.

Məruzə edilib ki, təlimin yüksək səviyyədə təşkili və hərbi qulluqçuların asudə vaxtının səmərəli keçirilməsi üçün təlim rayonlarında bütün imkanlar yaradılıb.



Sonda müdafiə naziri birgə əməliyyatların keçiriləcəyi ərazi ilə tanış olub, təlimə hazırlıq məşqlərini izləyib və təlim rəhbərlərinə müvafiq tapşırıqlar verib.

# “Birliyin Gücü-2026” birgə hərbi təlimi uğurla davam edir







**(Əvvəli 1-ci səhifədə)**

Təlimə cəlb edilən artilleriya bölmələri tərəfindən icra olunan dəqiq atəş zərbələri ilə terrorçuların dayaq məntəqələri, sığınacaqları və əsas hərbi hədəfləri tam məhv edilmişdir.

“Birliyin Gücü-2026” birgə hərbi təliminin hazırlıq mərhələsində ordumuzun hərbi qulluqçuları Türkiyə və Özbəkistandan olan şəxsi heyətlə birlikdə qarşıya qoyulan tapşırıqların icrası zamanı peşəkarlıq və yüksək döyüş hazırlığı nümayiş etdirirlər.

* * *

Ölkəmizdə təşkil olunan “Birliyin Gücü-2026” birgə hərbi təlimi çərçivəsində növbəti praktiki tapşırıqlar uğurla yerinə yetirilib.

Plana uyğun olaraq, iştirakçı ölkələrin bölmələri helikopterlərdən desantın endirilməsi, operativ mövqe tutaraq şərti terrorçu qruplaşmalarının zərərsizləşdirilməsi üzrə fəaliyyətləri müvəffəqiyyətlə icra ediblər.

Tapşırıqların icrası zamanı Azərbaycan, Türkiyə və Özbəkistandan olan hərbi qulluqçular yüksək peşəkarlıq və koordinasiya nümayiş etdiriblər.

Qeyd edək ki, məşqdə əsas diqqət iştirakçıların praktiki vərdişlərinin təkmilləşdirilməsi, aviasiya vasitələrinin şəxsi heyətlə uzlaşmış fəaliyyətinə nail olunması və təlimdə qarşıya qoyulmuş tapşırıqların uğurla yerinə yetirilməsinə yönəldilib.

* * *

“Birliyin Gücü-2026” birgə hərbi təliminin növbəti mərhələsinin hazırlıq məşqləri keçirilib.

Məşqlər Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus akvatoriyasında yerləşən "Böyük Zirə" təlim sahəsində təşkil olunub.

HDQ-nin gözətçi və desant gəmiləri cəlb olunan hazırlıq prosesində hər üç ölkənin hərbi qulluqçuları fəal iştirak ediblər.

Təlimdə dəniz və sahil infrastrukturunun mühafizəsi, terrorçular tərəfindən ələ keçirilmiş gəminin və girovların azad edilməsi, ərazinin minalardan təmizlənməsi, adaya dəniz desantının çıxarılması, terrorçu bazasının məhv edilməsi, eləcə də yaralıya ilkin tibbi yardımın göstərilməsi və təxliyəsi üzrə tapşırıqlar yerinə yetirilib.

Qeyd edək ki, təlimin əsas məqsədi dost və müttəfiq ölkələrin orduları arasında xüsusi əməliyyatların keçirilməsi sahəsində təcrübə mübadiləsinin aparılması, qarşılıqlı fəaliyyətlərin təşkili üzrə bacarıqların təkmilləşdirilməsidir.

* * *

Təlimin planına uyğun olaraq, şəxsi heyətin, silah və texnikanın, eləcə də aviasiya vasitələrinin cəlb edilməsi ilə müxtəlif təlim-döyüş ssenariləri üzrə praktiki tapşırıqlar icra edilir.

Aviasiya vasitələri müəyyən edilmiş marşrutlar üzrə müxtəlif yüksəkliklərdə ustalıqla manevrlər edir, şərti düşmənin hava hədəflərinə, radar və zenit-raket komplekslərinə, hərbi texnika və terrorçuların yerüstü mövqelərinə zərbələr endirilir.

Məşqlərin məqsədi pilotların praktiki vərdişlərini təkmilləşdirmək, aviasiya vasitələrinin şəxsi heyətlə uzlaşmış fəaliyyətinə nail olmaq və onların təlimdə qarşıya qoyulmuş tapşırıqların mürəkkəb hava və relyef şəraitində yerinə yetirilməsi üzrə qabiliyyətlərini yoxlamaqdır.









# "Bu Qələbəni bizə bəxş edən qəhrəman əsgər və zabitlərimiz bizim qürur mənbəyimizdir"

(Əvvəli 1-ci səhifədə)

Sonrakı illərdə də deportasiya siyasəti davam etdirildi. 1948-1953-cü illərdə Ermənistanda yaşayan azərbaycanlıların öz tarixi torpaqlarından deportasiya edilməsi, 1987-ci ildən başlayaraq yüz minlərlə azərbaycanlının doğma yurdlarından qovulması nəticəsində Ermənistan monoetnik dövlətə çevrildi. Bu proses xalqımızın yaddaşında yalnız statistik rəqəmlərlə deyil, yarımçıq qalan həyatlarla, dağıdılmış evlərlə, itirilmiş xatirələrlə, doğma torpağa qayıtmaq arzusu ilə yaşayır.

1988-ci ildə başlayan Qarabağ hadisələri isə vəziyyəti daha da ağırlaşdırdı. Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları silahlı münaqişəyə - müharibəyə çevrildi. Kəndlər və şəhərlər dağıdıldı, yüz minlərlə azərbaycanlı öz doğma torpaqlarından didərgin salındı.

1992-ci il fevralın 26-da törədilən Xocalı faciəsi bu qanlı səhifələrin ən ağır nümunələrindən biri oldu. Xalqımızın yaddaşında əbədi olaraq yaşayacaq qətliam nəticəsində yüzlərlə dinc sakin öldürüldü, qadınlar, uşaqlar və yaşlı insanlar həyatını itirdilər.



Bütün bunların fonunda Azərbaycan uzun illər ərzində məsələnin beynəlxalq hüquq normaları əsasında sülh yolu ilə həllinə çalışdı. BMT Təhlükəsizlik Şurasının Azərbaycan ərazilərinin işğaldan azad edilməsini tələb edən 822, 853, 874 və 884 saylı qətnamələri qəbul edildi. Lakin ikili standartlar səbəbindən uzun illər davam edən danışıqlar prosesi nəticə vermədi. İşğal faktı aradan qaldırılmadı, yüz minlərlə insan öz doğma yurduna qayıda bilmədi. Azərbaycan xalqı isə işğalla heç vaxt barışmadı.

Bu barışmaz mövqe 2016-cı ilin Aprel döyüşlərində, 2018-ci ilin Günnüt əməliyyatında və 2020-ci ilin iyulunda Tovuz istiqamətində baş verən döyüşlərdə bir daha nümayiş etdirildi. Azərbaycan Ordusunun döyüş qabiliyyəti, hərbçilərimizin peşəkarlığı və Vətən uğrunda mübarizə əzmi həmin döyüşlərdə özünü göstərdi.

Lakin Ermənistan bundan heç bir nəticə çıxarmadı. Təxribatlar davam etdi, Azərbaycan Ordusunun mövqeləri və yaşayış məntəqələrimiz atəşə tutuldu. Beləliklə, illərlə davam edən səbir və gözlənti 2020-ci ilin sentyabrında son həddinə çatdı. Belə desək, tam yerinə düşər, səbir kasamız doldu…

Və nəhayət, 27 sentyabr 2020-ci il…

Həmin səhər Azərbaycan xalqı üçün tarix başqa cür yazılmağa başladı. Atəşkəs rejimini kobud şəkildə pozan Ermənistan silahlı qüvvələri cəbhə boyu Azərbaycan Ordusunun mövqelərinə intensiv zərbələr endirməklə yanaşı, Tərtər, Ağdam, Füzuli və Cəbrayıl rayonlarının yaşayış məntəqələrini qəsdən artilleriya atəşinə tutaraq Azərbaycana qarşı növbəti təcavüzə başladı. Nəticədə, hərbi qulluqçular ilə yanaşı, 11 dinc sakin, o cümlədən 2 uşaq həlak oldu. Qarşı tərəfin genişmiqyaslı təxribatının qarşısını almaq məqsədilə Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Bununla da Vətən müharibəsinin ilk səhifəsi yazıldı.

Bu, əvvəlki atəşkəs pozuntularından fərqli idi. Artıq genişmiqyaslı hərbi qarşıdurma başlamışdı. 30 ilə yaxın davam edən işğala son qoymaq üçün mübarizə siyasi müstəvidən döyüş meydanına keçdi.

Həmin gün xalqımızın uzun illər ürəyində daşıdığı bir arzu gerçəyə çevrildi: Azərbaycan əsgərinə Vətən torpaqlarını azad etmək, işğalı sona çatdırmaq, etimadı doğrultmaq üçün döyüş əmri verilmişdi.



Bu əmr bir gündə yaranmış hazırlığın nəticəsi deyildi. Azərbaycan Ordusunun Böyük Qələbəyə hazırlanması illər əvvəl başlamışdı. Ordunun maddi-texniki bazasının gücləndirilməsi, müasir silah və texnikanın alınması, şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsi, müxtəlifmiqyaslı hərbi təlimlərin keçirilməsi, hərbi qulluqçuların peşəkarlığının artırılması istiqamətində irimiqyaslı islahatlar həyata keçirilmişdi.

Əməliyyatların ilk günündə döyüş meydanında görünən nəticələrin arxasında illərlə davam edən böyük hazırlıq dayanırdı. Gecə-gündüz keçirilən təlimlər, şəxsi heyətin döyüş vərdişlərinin təkmilləşdirilməsi, müasir texnologiyaların tətbiqi Azərbaycan Ordusunun döyüş qabiliyyətini artıran mühüm amillər idi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin dediyi kimi "... Bu Qələbəni bizə bəxş edən qəhrəman əsgər və zabitlərimiz bizim qürur mənbəyimizdir".

Rəşadətli Azərbaycan Ordusu bu hazırlığı sentyabrın 27-də bütün dünyaya nümayiş etdirdi. Azərbaycan əsgəri döyüş meydanında ancaq irəli gedirdi. Onun qarşısında illər ərzində qurulmuş istehkamlar, minalanmış sahələr, çətin relyef və güclü silahlı müqavimət vardı.

Vətən müharibəsi yalnız döyüş meydanında aparılmırdı. Siyasi müstəvidə də Azərbaycan dövləti ölkəmizin mövqeyini bütün dünyaya bəyan edirdi. Prezident İlham Əliyevin xarici və yerli media nümayəndələrinə verdiyi çoxsaylı müsahibələrdə Azərbaycanın haqlı mövqeyi beynəlxalq auditoriyaya çatdırılırdı.

Azərbaycan öz ərazisində döyüşürdü. Məqsəd işğala son qoymaq, ərazi bütövlüyümüzü bərpa etmək və doğma torpaqlarımıza qayıdışı təmin etmək idi.

Cəbhədən gələn hər xəbər bütün ölkədə böyük həyəcanla izlənilirdi. Azərbaycan Ordusu durmadan, gecə-gündüz yorulmaq bilmədən irəliləyirdi. Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərinin azad olunması ilə Zəfərə aparan yol daha da yaxınlaşırdı.




Lakin qarşıda bizi Zəfərin zirvəsinə çevriləcək bir şəhər gözləyirdi - Zəfərin tacı Şuşa.

8 noyabr 2020-ci il… Bu tarix Azərbaycan xalqının yaddaşına qızıl hərflərlə yazıldı. Şuşanın azad edilməsi xəbəri yayılanda ölkəmizi sözlə ifadə edilməsi çətin olan bir hiss bürüdü. 30 ilə yaxın davam edən həsrətin içindən sanki böyük bir işıq doğdu. Artıq Şuşa azad idi. Qəhrəman Azərbaycan əsgəri şanlı bayrağımızı Şuşada dalğalandırmışdı. Qarabağa - tarixi və mədəniyyət beşiyimizə qayıtmışdıq.

Azad edilən hər kəndin, şəhərin, qəsəbənin, yüksəklik və yaşayış məntəqələrinin adı insanların sevincinə səbəb olurdu. Ancaq bu sevincin arxasında gedən döyüşlərdə itkilərin olacağını da bilirdilər. Və hər qələbənin, azad olunmuş yaşayış məntəqəsinin bir dəyəri vardı - şəhid qanı - insan taleyi. Müharibənin ən ağır həqiqəti də buradan başlayırdı və bu həqiqətin ən ağır sözü şəhid sözüdür. O şəhid sözü ki, bir ana övladının səsini bir daha eşitmir. Bir ata övladının şəklinə baxaraq susur. Bir həyat yoldaşı ömrünün qalan hissəsini xatirələrlə yaşayır. Bir uşaq atasının yolunu gözləməklə böyüyür.

Qəhrəman əsgərlərimiz isə bütün bunları bilə-bilə döyüşürdülər. Ancaq onların qarşısında daha böyük bir amal vardı - Vətən torpaqlarının azadlığı. Bir qəhrəmanın yarımçıq qoyduğu yolu onun döyüş yoldaşı davam etdirirdi. Beləcə, şəhidlərimizin qanı-canı ilə yazılan yol addım-addım Zəfərə, Böyük Qələbəyə doğru uzandı.

Bu gün azad edilmiş torpaqlarda dalğalanan üçrəngli bayrağımıza baxarkən şəhidlərimizin ruhunu hiss etməmək mümkün deyil. Çünki həmin torpaqların hər qarışında onların adı, fədakarlığı, igidliyi yaşayır.

*Bu Vətən, bu torpaq*
*mənimdi deyib,*
*Üstündə vüqarla*
*gəzdi Şəhidlər.*
*Əyninə qanından*
*bir köynək geyib,*
*Düşmənin yolunu*
*kəsdi Şəhidlər.*

Məhz buna görə 27 sentyabr Anım Günü olmaqla yanaşı, həm də şəhidlərimizin əziz xatirəsinə ehtiramın, onların qarşısında mənəvi borcun ifadəsidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2 dekabr 2020-ci il tarixli Sərəncamı ilə sentyabrın 27-si Azərbaycan Respublikasında Anım Günü kimi təsis edilib. Bu gün Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilmiş torpaqlarda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş bütün şəhidlərimizin xatirəsinə dərin ehtiramın ifadəsidir. Şəhidlərimizin əziz xatirəsi hər il sentyabrın 27-də saat 12:00-da ölkəmizin bütün ərazisində bir dəqiqəlik sükutla yad olunur.

44 gün… Bu günlər Azərbaycan xalqının tarixində bütöv bir epoxaya sığacaq qədər böyük hadisələrlə yadda qaldı.

Əllərdə bayraq, dillərdə "Şəhidlər ölməz, Vətən bölünməz", "Hər şey Vətən üçün", "Öldü var,




döndü yoxdur" və s. şüarları ilə küçələrə axışdıq. İnsanlar həm sevinc, həm kədər hissini eyni anda yaşayırdılar.

Müharibə bitdi. Amma Zəfər yolunun yeni mərhələsi başladı. İşğaldan azad edilmiş ərazilər Azərbaycan xalqını ağır mənzərə ilə qarşıladı. Viran edilmiş şəhərlər, dağıdılmış kəndlər, məhv edilmiş tarixi və dini abidələr, minalarla çirkləndirilmiş torpaqlar… İndi qarşıda növbəti vəzifə dayanırdı - həmin torpaqlarda həyatı yenidən canlandırmaq.

Azərbaycan dövləti azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və quruculuq işlərinə başladı. Yeni yollar çəkildi, hava limanları istifadəyə verildi, yaşayış məntəqələri, məktəblər, xəstəxanalar və digər sosial obyektlər inşa edildi. Bir vaxtlar düşmənin xarabalığa çevirdiyi şəhərlərdə yenidən həyat canlanır.

Azərbaycan Ordusunun şəxsi heyəti də, öz növbəsində, işğaldan azad olunmuş ərazilərdə Vətənimizin keşiyində ayıq-sayıq dayanaraq genişmiqyaslı bərpa-quruculuq işlərinin ən yüksək səviyyədə həyata keçirilməsinə, Böyük Qayıdışa öz layiqli töhfələrini verməkdədir.

Zəfərin ən böyük mənalarından biri yalnız şəhərlərin yenidən qurulması deyildi. Ən böyük sevinc illərlə doğma yurdunun həsrətini çəkən insanların öz evlərinə qayıtması oldu.

(Ardı 4-cü səhifədə)

# “Bu Qələbəni bizə bəxş edən qəhrəman əsgər və zabitlərimiz bizim qürur mənbəyimizdir”

(Əvvəli 3-cü səhifədə)

Bir vaxtlar doğma kəndindən, şəhərindən zorla çıxarılan, didərgin salınan insanlar illər sonra həmin torpaqlara qayıtdılar. Bir zamanlar yalnız xəyallarda canlandırılan mənzərə gerçəyə çevrildi: Qarabağın və Şərqi Zəngəzurun kənd və şəhərlərində yenidən həyat canlandı, toy-bayram səsləri eşidilməyə başlandı.

Beləliklə, 27 sentyabrda başlayan yol Böyük Qayıdışla davam edir.

Lakin tarixi proses bununla da yekunlaşmadı. 2023-cü il sentyabrın 19-da Azərbaycan Respublikasının Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə başlayan, 23 saat davam edən antiterror əməliyyatı Azərbaycanın dövlət suverenliyinin tam bərpa edilməsi ilə nəticələndi. Azərbaycan



Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli Sərəncamında da bu hadisə dövlət suverenliyinin bərpası kimi təsbit edildi və sentyabrın 20-si Dövlət Suverenliyi Günü elan olundu.

Beləliklə, 27 sentyabr 2020-ci ildə başlayan yol 2023-cü il sentyabrın 20-də Azərbaycanın bütün ərazisində dövlət suverenliyinin bərpası ilə yeni tarixi mərhələyə çatdı.

Bu gün Azərbaycan Bayrağı ölkəmizin bütün ərazisində olduğu kimi, azad edilmiş torpaqlarımızda da dalğalanır. Bu qürurun arxasında Azərbaycan hərbçisinin fədakarlığı, xatirəsi əziz olan şəhidlərimizin igidliyi, döyüş əməliyyatları zamanı sağlamlıqlarını itirmiş silahdaşlarımızın şücaəti dayanır.

Bu gün 27 sentyabr tarixini müharibənin başladığı gün kimi xatırlamırıq. Biz o payız səhərini, ilk şəhidlərimizi, sağlamlıqlarını itirən döyüşçülərimizi, “Qarabağı azad etməmiş gəlmə”, - deyərək övladını cəbhəyə yola salan analarımızı da, oğlunun nəşini çiyinlərində daşıyan atalarımızı da, həyat yoldaşlarını itirməklərinə rəğmən dik durmağa çalışan şəhidlərimizin xanımlarını da, atasının yolunu gözləyən, lakin onun qayıtmayacağını illər sonra dərk edən şəhidlərimizin əmanətlərini də xatırlayırıq. Çünki Anım Günü yaddaş günümüzdür.

Buna görə 27 sentyabrda qalib xalq kimi başımızı dik tutaraq qürur duyur, lakin, eyni zamanda, şəhidlərimizin əziz xatirəsi, ölməz ruhları qarşısında ehtiramla baş əyirik.

Uğrunda canınızı qurban verdiyiniz Vətən bu gün bütövdür, igid qardaşlarımız. Dövlətimizin başçısının dediyi kimi: “Birinci Qarabağ və İkinci Qarabağ müharibələrinin şəhidləri bizim qəlbimizdə əbədi yaşayacaq. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların qəhrəmanlığı, fədakarlığı nəticəsində biz torpaqlarımıza qayıdırıq. Allah bütün yaralı hərbçilərimizə şəfa versin, onlar tezliklə sağalıb normal həyata dönsünlər, onların sağalması üçün də əlimizdən gələni edirik və edəcəyik. Hətta ən ağır vəziyyətdə olan yaralı əsgərimiz, zabitimiz bilməlidir, əlimizdən gələni edəcəyik ki, onu normal həyata qaytaraq. Biz bu Qələbəyə görə onlara borcluyuq”.

**Baş leytenant**
**Elçin İMANOV**
**“Azərbaycan Ordusu”**

# Silahlar susanda başlayan böyük mübarizə

Müharibənin sonu atəş səslərinin kəsilməsi deyil. Əsl sınaq bəzən məhz bundan sonra başlayır… Müharibə… Bu sözün özü belə insanda qorxu yaradır. Döyüş meydanı, səngər, əsgər, ayrılıq, göz yaşları, itkilər, yarımçıq qalan arzular… Müharibə haqqında danışarkən çox vaxt onun görünən tərəflərini düşünürük. Döyüşləri, hərbi texnikanı, qəhrəmanlığı, qələbələri… Amma bir də görünməyən müharibə var. Hansı ki, silahların susmasından sonra insanların yaddaşında davam edir. Müharibə bir gün başlaya bilər. Onun nəticələrini aradan qaldırmaq isə illər çəkir.

Ən ağır itki insan həyatıdır. Müharibənin statistik rəqəmlərlə ifadə edilə bilməyən bir tərəfi var - insanların taleyi. Hər itki arxasında bir ailə, ana, ata, övlad, yarımçıq arzular qoyur. Bir əsgərin döyüş meydanında göstərdiyi qəhrəmanlıq tarixə yazıla bilir. Lakin onun ailəsinin yaşadığı ağrını heç bir rəqəm və heç bir statistika tam ifadə edə bilməz. Buna görə müharibəyə yalnız hərbi baxımdan yanaşmaq bəs etməz. Müharibənin insan həyatına vurduğu zərbəni də dərk etmək lazımdır.

Uşaq üçün dünya oyun, məktəb, dostlar və ailə deməkdir. Müharibə isə bu dünyanı bir anda dəyişə bilər. Bu cür anlara şahid olan uşaqlardan biri kimi qeyd etmək istəyirəm. Müharibə başlayanda mən hələ uşaq idim. Nə siyasətdən anlayırdım, nə də müharibənin nə demək olduğunu dərk edirdim. Amma qorxunu çox yaxşı tanıyırdım. Yaşım az olsa da, yadımdadır, böyüklərin üzündə əvvəlki təbəssüm yox idi. Uzaqdan gələn gurultunun nə olduğunu soruşanda isə mənə “qorxma” deyirdilər. Amma onların səsindəki narahatlıq məni daha çox qorxudurdu. Dayımgil həmin gecə bizə tanımadığım insanlar gətirdilər. İçlərində qoca da vardı, cavan da, uşaq da. Biri qorxudan danışa bilmirdi, biri susub həyəcanlı gözlərlə ətrafa baxırdı. Bəzən bir uşağı qucaqda gətirirdilər - üzündə uşaq saflığı, gözlərində isə yaşına sığmayan bir qorxu olurdu. Nə mən onları tanıyırdım, nə də onlar məni. Müharibə hamımızı bir-birimizə yad olmayan insanlara çevirmişdi. Onların üzündə gördüyüm qorxu, əllərindəki titrəmə, gözlərindəki ümidsizlik uzun illər keçsə də, yaddaşımdan silinmədi.

O gün anladım ki, müharibə xəbərlərdə gördüyümüz tanklardan və partlayışlardan ibarət deyil. Müharibə bir gecədə evindən çıxmağa məcbur olan qocadır, anasının qucağında susan uşaqdır, arxada qoyduğu evinə son dəfə baxan cavandır... Və bəlkə də ən ağır tərəfi budur, sən onların adını bilmirsən, amma yaşadıqları ağrının şahidi olursan. Bəzi üzlər insanın yaddaşına elə həkk olunur ki, illər keçsə də, onları unutmaq mümkün olmur.

Sən demə müharibə yalnız cəbhədə baş vermir, evlərə də girir - insanların ürəyinə, yuxularına, xatirələrinə. İndi müharibəyə uşaq gözü ilə deyil, bir gənc kimi baxıram və bir şeyi yaxşı anlayıram ki, müharibə bir günün içində başlayır, amma onun qorxusu bəzi insanların içində illərlə susmadan yaşayır…

Müharibə bitir... Silahlar susur, partlayış səsləri kəsilir. Bəziləri üçün müharibə son güllə atılanda bitir, bəziləri üçün isə illərlə davam edir - xatirələrdə, yuxularda, səssiz gecələrdə… Dağılan evləri yenidən tikmək mümkündür. Yolları düzəltmək, şəhərləri yenidən qurmaq olur. Amma bir insanın yoxluğunu heç nə ilə doldurmaq olmur. Bəzən bir ev yenidən tikilir, amma o evdə əvvəlki səs heç vaxt eşidilmir. Bir ana hər axşam qapıya baxır… Bir uşaq atasını gözləyir... Bir qadın illər keçsə də, sevdiyi insanın səsini unutmaq istəmir... Bir ailədə süfrəyə bir nəfər əskik oturur… Ən ağır tərəfi də budur - həyat davam edir…

Müharibədən sağ çıxanların da hamısı əvvəlki kimi qayıtmır. Bəziləri bədənində, bəziləri isə ruhunda yaralar gətirirlər. Gecələr sakitlikdə keçmişi xatırlayır, heç kimə danışmadıqları ağrıları içlərində daşıyırlar. Onlar qəlblərində itirdikləri insanın xatirəsi ilə



yaşamağa davam edirlər. Bəlkə də müharibədən sonra ən çətin şey yenidən xoşbəxt olmağa cəsarət etməkdir. İnsan bəzən güləndə belə özünü günahkar hiss edir. Çünki onun gülüşünə şərik olan biri artıq həyatda deyil... Və o gülüş boğazında düyünlənib qalır... Amma zaman insana bir həqiqəti öyrədir. Yaşamaq itirdiklərini unutmaq demək deyil, əksinə, gedənlərin xatirəsinə hörmət etməyin ən səssiz yoludur.

Uşağın gülməsi, həyətə yenidən ağac əkilməsi, bir evdə işıqların yanması, ailənin bir süfrə arxasında toplaşması… Bunlar sadə görünür. Amma müharibədən keçən biri üçün bunların hər biri böyük bir möcüzədir. Çünki müharibə insana adi günlərin nə qədər qiymətli olduğunu öyrədir. Sakit bir gecə, qorxmadan yatmaq, ananın səsini eşitmək, atanın evə qayıtmasını gözləmək, uşağın gülüşünü eşitmək, sevdiyin insanı qucaqlamaq. Bunların heç birinin bir anda itə biləcəyini düşünmürük. Ta ki, bir gün itirənə qədər…

Amma bir insanın qəlbində itirilmiş sabahı yenidən qurmaq üçün sevgi, zaman və ümid lazımdır. Müharibə bizdən çox şeyi alsa da, bizə çox şeyi öyrətdi. İnsanın ən böyük sərvəti sevdiklərinin sağ-salamat yanında olmasıdır. Müharibə bitəndə həyat yenidən davam edir. Ancaq o həyat əvvəlkindən fərqli olur. İnsan daha çox düşünür, qiymət verir və ən əsası sülhün nə demək olduğunu dərindən anlayır. Bəlkə də müharibədən sonra ən böyük qələbə yenidən gülə bilməkdir, gələcəyə inanmaqdır.

Müharibə dağıdır, yerlə-yeksan edir, sülh isə qurmağı tələb edir. Dağılan bir şəhəri yenidən qurmaq üçün texnika və maliyyə lazımdır. Amma insanların həmin şəhərə yenidən həyat gətirməsi üçün bundan daha böyük bir qüvvə - ümid lazımdır. İnsanlar evlərinə qayıdırlar, küçələr yenidən canlanır, uşaqlar məktəbə gedirlər, mağazalar açılır, yeni iş yerləri yaranır. Bir vaxtlar səssiz qalan küçələrdə yenidən uşaqların səsi eşidilir. Məhz bu mənzərə müharibədən sonrakı həyatın ən böyük qələbələrindən biridir.

Həkim insan həyatını xilas edərək, müəllim savadlı nəsil yetişdirərək, mühəndis yeni layihələr quraraq, alim elmi inkişaf etdirərək, gənc yaxşı təhsil alaraq ölkəsinə xidmət edə bilər. Vətəni qorumaq qədər onu inkişaf etdirmək də vətəndaşlıq borcudur. Çünki güclü dövlət yalnız güclü ordu ilə deyil, həm də savadlı cəmiyyət, inkişaf etmiş iqtisadiyyat, elm, təhsil və milli birliklə qurulur.

Ordunun əsas gücü yalnız silah və texnika deyil. Ordunun ən böyük gücü insandır. Əsgər Vətənin təhlükəsizliyi üçün ciddi məsuliyyət daşıyır. O, bəzən ailəsindən uzaqda, çətin hava şəraitində, böyük risk qarşısında xidmət edir. Əsgərlik həm fiziki, həm də mənəvi hazırlıq tələb edir. İntizam, cəsarət, dözümlülük, komanda ruhu və Vətənə bağlılıq hərbi xidmətin əsas dəyərlərindəndir. Bu baxımdan güclü ordu yalnız müasir texnikaya sahib deyil. Güclü ordu həm də hazırlıqlı, intizamlı və yüksək mənəvi ruhlu insanlardan ibarətdir.

XXI əsrdə texnologiyanın inkişafı hərbi sahəyə böyük təsir göstərir. Bu səbəbdən gələcəyin əsgəri yalnız fiziki cəhətdən güclü deyil, həm də savadlı, texnologiyanı anlayan və sürətlə dəyişən şəraitə uyğunlaşan mütəxəssis olmalıdır. Pilotsuz uçuş aparatları, elektron sistemlər, peyk görüntüləri, müasir rabitə vasitələri və süni intellekt kimi əsaslı texnologiyalar artıq hərbi strategiyalarda mühüm yer tutur. Bu isə yeni reallıq yaradır. Artıq yalnız fiziki güc deyil, bilik, texnologiya və informasiya üstünlüyü də böyük əhəmiyyət daşıyır.

Güclü ordu Vətənin təhlükəsizliyini qoruyur, güclü cəmiyyət isə Vətənin gələcəyini qurur. Bəlkə də müharibənin bizə verdiyi ən böyük dərs budur. Vətəni qorumaq qəhrəmanlıq, onu yaşatmaq məsuliyyətdir. Sülhü qorumaq isə gələcək nəsillərə verilən ən böyük vəddir. Onlara təhlükəsiz və firavan gələcək yaratmalıyıq. Çünki hər bir insanın ən böyük arzusu özündən sonrakı nəslə daha yaxşı, sülh içində həyat bəxş etmək olmalıdır. Ona görə də müharibədən sonra qarşımızda xüsusi bir vəzifə dayanır - uşaqlara normal həyatlarını qaytarmaq. Məktəbə gedən, dostları ilə oynayan, gələcəklə bağlı arzular quran uşaq, əslində, bərpa olunan həyatın ən gözəl nümunəsidir.

Bəlkə də bir gün gələcək uşaqlar müharibənin nə olduğunu yalnız kitablardan oxuyacaq, filmlərdən görəcək və biləcəklər ki, bir vaxtlar bu torpaqlarda müharibə olub... Amma biz gələcəyimizi sülhlə qurmağı seçmişik!

**Pərvanə İMAMƏLİYEVA**
**“Azərbaycan Ordusu”**

*Heç kim unudulmur*

# Vətənpərvər atalar və oğullar

Bu il də ali məktəblərə yüksək bal toplayanlar sırasında Vətəni canından əziz tutan igid şəhidlərin övladları da olub. Ataları Vətəni düşməndən qorudular, ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsində misilsiz igidliklər göstərib şəhadətə ucaldılar. Bəziləri davamçılarını xalqa, dövlətə əmanət qoydular. Xalq da, dövlət də şəhid övladlarına arxa-dayaq oldu. Onları bir an belə diqqətdən, qayğıdan kənarda qoymadı. Zamanında körpə, fidan bildiyimiz həmin uşaqların bu gün böyüyüb atalarına layiq yol seçdiklərinin şahidi oluruq. Bəli, ataları hansı məqsəd, amal uğrunda döyüşə getdiklərini və bu döyüşlərdə canlarından keçəcəklərini bilirdilər. Onların özlərindən sonra qoyub getmək istədikləri Azərbaycan adlı bir məmləkət var idi. Bu gün biz Azərbaycanın dövlət kimi möhkəmlənməsinə və inkişaf etməsinə töhfə vermək istəyənlərin sırasında şəhid övladlarını da görürük. Ataları Vətənə döyüşərək töhfə verdilər, övladları isə elmlə, biliklə Vətəni ucaltmaq istəyirlər.





Azərbaycanın hər bir guşəsi gözəldir. Bu dəfə yolumuz Vətənimizin dilbər guşəsi olan Qax rayonunadır. Böyük Qafqaz dağlarının ətəyində yerləşən bu rayon həm Birinci, həm də İkinci Qarabağ müharibələri dövründə 180-dən artıq şəhid verən rayonlarımızdandır. Qax camaatı vətənpərvərliyi ilə sayılıb-seçilib. Vətənin ağır günündə digər regionlarımız kimi, qaxlılar da sinələrini sipər ediblər. İkinci Qarabağ müharibəsində şəhid olan polkovnik-leytenant Sadiq Məmmədovu Qaxda hər kəs tanıyır, onunla qürur duyur.

Sadiq Sadəddin oğlu Məmmədov 1981-ci ildə Qax şəhərində sadə, zəhmətkeş ailədə dünyaya göz açıb. Qax şəhəri Namiq Allahverdiyev adına 2 nömrəli tam orta məktəbə gedib. Dərslərini də yaxşı oxuyub. İdmana daha çox önəm verib. Özünü böyüyəndə hərbçi - zabit görmək istəyib. Bu istək, bu arzu idi Sadiqi orta məktəbi bitirəndən sonra indiki Heydər Əliyev adına Hərbi İstituta gətirən. Özü də "Kəşfiyyatçı" ixtisasına yiyələnib. 2002-ci ildə Sadiq Məmmədov gənc leytenant kimi hərbi xidmətə başlayıb. Onun zabit kimi xidmətinin çox illəri cəbhə bölgəsində, düşmənlə təmas xəttində keçib. Xarici ölkələrdə keçirilən təlim kurslarında iştirak edib. Çətin və şərəfli xidmət illərində bir dəfə də olsun "yoruldum" deməyib. Əksinə, zabit peşəsinin necə şərəfli, ləyaqətli bir peşə olduğunu yaxşı dərk edib səvirdi. Bu peşənin aliliyini, ucalığını qoruyub saxlayırdı. Hələ kursant olanda onu gələcəkdə nələrin gözlədiyini də yaxşı bilirdi. Müharibə gedən bir ölkədə, torpaqlarımızın 20 faizinin ermənilər tərəfindən işğal edildiyi bir dönəmdə zabit olmaq üçün cəsarət, hünər tələb olunurdu. Məhz, Sadiqin bu cəsarəti idi onu yuxarı rəislərə, silahdaşlara və tabeliyində olanlara sevdirən. "Polkovnik-leytenant" rütbəsinə qədər yüksələn Sadiq Məmmədov ölkəmizin müxtəlif yerlərində dislokasiya olunan hərbi hissələrdə xidmət edib.

Sadiq Məmmədov vətənpərvər olduğu kimi, ailəcanlı, övladlarına bağlı bir ata olub. Onu daim düşündürən övladlarının sağlam böyüməsi, tərbiyəli olması və yaxşı oxuması idi. Sadiq bütün varlığı ilə övladlarının gələcəyi üçün çalışıb. Onların uğurlarını görməyə ömür vəfa etməyib, müharibə onun da arzusunu ömrü kimi yarıda qoyub. Həyat yoldaşı Pərvanə xanım deyir ki, Sadiq Sənanı da, Kənanı da idmançı görmək istəyirdi. Sənanı kingboksing idman növünə qoymuşdu. Yaxşı nəticələri vardı. Yaşıdları arasında keçirilən yarışlarda medallar da qazanmışdı. Bunu görən atanın sevinci yerə-göyə sığmırdı. Məşqlərin birində Sənan ciddi zədə aldı. Bundan sonra o, idmana davam edə bilmədi. Dərslərə daha çox vaxt ayırdı.

Pərvanə xanım Sadiqin nə cür ailə başçısı olduğunu yaxşı bilirdi. Onun arzusuna və istəyinə uyğun övladlarını böyütmək üçün bütün varlığı ilə çalışırdı. Ata cəbhə bölgəsində, səngərdə xidmət yerində idi. Bu səbəbdən də uşaqlarına çox vaxt ayıra bilmirdi. Belə olan halda ailənin böyük yükü ananın üzərinə düşürdü. O da övladları atanın görmək istədiyi, arzu etdiyi qaydada böyütmək üçün hər cür əziyyətə qatlaşırdı.

Sadiqin ailəsində 3 uşaq böyüyürdü. Səbinə, Sənan və Kənan. Ailə başçısının xidmət yeri ilə əlaqədar olaraq onlar məktəbi tez-tez dəyişmək məcburiyyətində qalırdılar. Bu da onların təhsilinə təsirsiz ötüşmürdü. Uşaqlar məktəbdən və müəllimlərdən razı olanda, dərslərini yaxşı oxuyanda Sadiq özündə bir rahatlıq tapırdı.

2020-ci il sentyabrın 27-si səhəri hər şey dəyişdi. Ermənilər yeni əraziləri işğal etmək iddiasına düşmüşdülər. Ancaq ordumuzun düşmənlə təmas xəttində yerləşən bölmələri onların arzularını elə arzu olaraq ürəklərində qoydu. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev əks-hücum əmri verdi, qismən səfərbərlik elan etdi. Polkovnik-leytenant Sadiq Məmmədov hərbi hissənin məsul şəxslərindən biri idi. Hərbi hissə qısa zaman ərzində Füzuliyə dislokasiya olundu. Həmin istiqamətdə ağır döyüşlər gedirdi. Bir çox yaşayış məntəqələrimizin azad edilməsində Sadiq və onun tabeliyindəki döyüşçülər fəallıq göstərdilər. Oktyabrın 26-da səhərə yaxın Xocavənd rayonunun Qırmızıbazar qəsəbəsində növbəti döyüş tapşırığını yerinə yetirərkən polkovnik-leytenant Sadiq Məmmədov şəhid oldu...

Şəhid zabitimiz oktyabrın 28-də doğulub boya-başa çatdığı Qax rayonunun Şəhidlər xiyabanında izdihamla torpağa tapşırılıb. Sadiq Məmmədov Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medallarına layiq görülüb.

Sadiq Məmmədov şəhid olandan sonra ailəsi doğma Qax şəhərinə qayıdır. Övladları vaxtilə atalarının oxuduğu 2 nömrəli tam orta məktəbdə təhsillərini davam etdirməyə başlayırlar. Qızı Səbinə Məmmədzadə humanitar fənlərə üstünlük verirdi. Ötən il 520 balla Azərbaycan Dillər Universitetinə qəbul olub. Hazırda "Koreya dili üzrə tərcüməçi" ixtisası üzrə təhsil alır. Sənan Məmmədzadə bacısından fərqli olaraq texniki fənlərə maraq göstərib. 9-cu sinfin buraxılış imtahanında 297 bal toplayıb. O, "Yaşat" fondunun xətti ilə İngiltərənin paytaxtı London şəhərində iki həftəlik səyahətdə olub. Kənan isə 7-ci sinifdə oxuyur. Atasının adını daşıyan sinif otağı onun sinif otağıdır. Kənan da qardaşı kimi yaxşı oxuyur. Qardaşı kimi, o da riyaziyyat, fizika və informatika fənlərinə böyük maraq göstərir.



Sənan Məmmədzadə bu il 621.7 bal toplayıb tələbə adını qazanan şəhid övladlarından biridir. O, Azərbaycan İqtisad Universitetinin "Kompüter mühəndisliyi" fakültəsinə qəbul olub. Sənan orta məktəbin buraxılış və ali məktəblərin qəbul imtahanlarında əldə etdiyi yüksək bala görə əməyi keçən ailəsinə, Qax şəhəri Namiq Allahverdiyev adına 2 nömrəli tam orta məktəbin və Qax Təhsil Mərkəzinin müəllim kollektivinə borclu olduğunu deyir. Sənanın hazırda məqsədi bakalavr təhsilini uğurla başa vurmaqdır. Gələcək planlar haqda nəsə deməyə tələsmir.

- Üzərimə düşən əsas vəzifə yaxşı oxuyub seçdiyim ixtisas üzrə bacarıqlı, peşəkar mühəndis olub, dövlətimə xeyir verməkdir, - Sənan deyir. Biz də ona bu yeni həyat yolunda uğurlar arzulayırıq.

Şəhid övladlarının təhsildə, idmanda, mədəniyyətdə və elmin müxtəlif sahələrində qazandıqları uğurlar haqqında çox eşidirik. Onların uğurlarının Vətənimizin güclənməsinə, qüdrətlənməsinə səbəb olacağı şübhəsizdir. Ataları övladlarına Vətəni əmanət etdilər, övladları da atalarının canlarından keçdikləri Vətəni qoruyub daha da qüdrətli etməyi qarşılarına məqsəd qoydular. Bəli, ataları döyüş meydanlarında olduqları kimi, övladları da elmlə Vətənə bağlı olduqlarını təsdiqləyirlər.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

## "2020-2023-cü illərdə Azərbaycan Ordusunun inkişafı qısa zamanda uğurlu əməliyyatın keçirilməsini təmin etdi"

Azərbaycanın dövlət suverenliyinin tam bərpası uzun illər davam edən hərbi-siyasi proseslərin, ordu quruculuğunun və ərazi bütövlüyünün təmin olunması istiqamətində həyata keçirilən ardıcıl siyasətin nəticəsi idi. Prezident İlham Əliyevin 2024-cü il sentyabrın 19-da imzaladığı Sərəncamla sentyabrın 20-nin Dövlət Suverenliyi Günü elan edilməsi məhz bu uzunmüddətli mübarizənin tarixi nəticəsinin rəsmi ifadəsi oldu.

Bu barədə AZƏRTAC-a açıqlamasında Vətən müharibəsi iştirakçısı, ehtiyatda olan polkovnik-leytenant, hərbi-siyasi ekspert Elmar Hüseyn deyib.

Onun sözlərinə görə, Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan vahid komandanlıq və ordu quruculuğu siyasəti 1994-cü ildə uğurlu Horadiz əməliyyatı ilə hərb tarixində yeni mərhələnin başlanmasına zəmin yaradıb.

"Bu mərhələ həm də Azərbaycanın quruculuq və diplomatik mübarizə tarixində yeni dövr açıb. Biz ordu quruculuğu ilə yanaşı, Qarabağ və ətraf rayonların Azərbaycana məxsus olduğunu uzun illər beynəlxalq kürsülərdən səsləndirdik. BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməməsini dünya ictimaiyyətinin diqqətinə çatdırdıq. 30 il ərzində Azərbaycan torpaqlarının işğal altında qalması və beynəlxalq ictimaiyyət tərəfindən bu vəziyyətlə barışmağa məcbur edildikləri qəbuledilməz idi. Məhz buna görə Prezident İlham Əliyevin 2003-cü ildən etibarən həyata keçirdiyi siyasətdə ordu quruculuğuna xüsusi diqqət yetirildi", - deyə ekspert qeyd edib.

Onun sözlərinə görə, 2020-ci ilin iyulunda general-mayor Polad Həşimovun şəhid olması zamanı xalqın nümayiş etdirdiyi həmrəylik də bu gözləntinin gücünü göstərdi: "Bundan sonra geniş ictimai səfərbərlik müşahidə edildi və çox sayda insan könüllü olaraq hərbi xidmətə yazıldı. Nəticədə 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi Azərbaycanın tarixi Zəfəri ilə başa çatdı. Müharibə nəticəsində ərazilərin böyük hissəsi işğaldan azad edildi və 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanat imzalandı. 10 noyabr tarixli Bəyanat Ermənistanın kapitulyasiyası olmaqla yanaşı, Azərbaycanın heç bir itki vermədən Kəlbəcər, Ağdam və Laçını qaytarması ilə nəticələndi. Bununla da ölkənin ərazi bütövlüyünün bərpası istiqamətində həlledici mərhələ başlandı".

Elmar Hüseyn qeyd edib ki, 2020-ci ildən sonra da Azərbaycanın qarşısında həllini gözləyən mühüm məsələlər qalırdı. Onun sözlərinə görə, Ermənistan silahlı qüvvələrinin qalıqlarının Qarabağ ərazisində qalması, qanunsuz silahlı birləşmələrin fəaliyyəti və davam edən təxribatlar yeni təhlükələr yaradırdı.

"Ermənistanın öz qoşunlarını Azərbaycan ərazisindən tam şəkildə çıxarmaq öhdəliyini yerinə yetirmək əvəzinə fərqli addımlar atırdı. Belə ki, Ermənistanın 2020-ci ildən sonra istehsal edilmiş silah-sursatı, o cümlədən minaları qanunsuz yollarla Qarabağın Rusiya sülhməramlılarının nəzarətində olan ərazilərinə daşıması, 480 kilometrədək təmas xətti boyunca yeni minalanmış ərazilər, 500-dən artıq döyüş mövqeyi və möhkəmləndirilmiş uzunmüddətli atəş nöqtəsi, müxtəlif tipli artilleriya qurğuları üçün 350-dən artıq atəş mövqeyi, kəşfiyyat-müşahidə vasitələrinin quraşdırılması kimi faktlar mövcud idi. Biz artıq başa düşürdük ki, Azərbaycanın suverenliyinin tam təmin olunması üçün konkret addımlar atılmalıdır. 2023-cü ilin sentyabrında baş verən hadisələr də bu prosesin son mərhələsinə gətirib çıxardı. Əməliyyat 23 saat 43 dəqiqə davam etdi və sentyabrın 20-də başa çatdı. Nəticədə Azərbaycan ərazisində qanunun aliliyi və konstitusiya quruluşu bərpa edildi, dövlət suverenliyinin tam bərpası təmin olundu", - deyə ehtiyatda olan polkovnik-leytenant əlavə edib.

# Hərbi Prokurorluğun rəhbərliyi Naxçıvanda hərbi qulluqçuların xidmət və məişət şəraiti ilə tanış olub





*Hərbi Prokurorluğun rəhbərliyi Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Naxçıvan Muxtar Respublikasında yerləşən hərbi hissələrini, eləcə də Naxçıvan Hərbi Kollecini ziyarət edib.*




Hərbi Prokurorluqdan AZƏRTAC-a verilən məlumata görə, hərbi qulluqçularla görüşdə Vətən müharibəsində və antiterror əməliyyatında Silahlı Qüvvələrimizin və xalqımızın bir yumruq kimi Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında birləşməsindən və Dövlət Suverenliyimizin tam bərpa olunmasından danışılıb.

Görüş zamanı hərbi qulluqçuların xidmət və məişət şəraiti ilə tanışlıq olub. Hərbi qulluqçular göstərilən diqqət və qayğıya görə dövlət rəhbərliyinə dərin minnətdarlıqlarını ifadə ediblər və qarşıya qoyulacaq bütün tapşırıqları vaxtında yerinə yetirməyə qadir olduqlarını bildiriblər.

Tədbirin sonunda xidmətdə fərqlənən hərbi qulluqçulara hədiyyələr təqdim olunub.

# Hərbi liderliyin əsas keyfiyyətləri

*Bölmənin gündəlik fəaliyyətinə, şəxsi heyətin nizam-intizamına, döyüş hazırlığına və qarşıya qoyulan vəzifələrin dəqiq yerinə yetirilməsinə komandirin necə yanaşması birbaşa təsir göstərən amillərdəndir. Əsgər üçün komandir, ilk növbədə, rütbə sahibi deyil, təcrübəli hərbi lider, çətin məqamda güvənə biləcəyi, qərarına etibar edəcəyi şəxsdir. Buna görə də komandirlik yalnız vəzifə deyil, ciddi məsuliyyət tələb edən liderlik missiyasıdır. Rəisin davranışı, danışıq tərzi, qərarları, hətta mürəkkəb vəziyyətlərdə nümayiş etdirdiyi münasibət şəxsi heyət tərəfindən diqqətlə sezilir. O, bir çox hallarda bölmənin ümumi ab-havasını müəyyənləşdirən əsas şəxslərdən biridir.*



Güclü komandir tabeliyində olan şəxslərdən yalnız tələb etmir, eyni zamanda, onların qarşısına qoyduğu tələblərə özü də əməl edir. Əsgər komandirinin güzgüsüdür, ailədə olduğu kimi. Komandir xidmət müddətində əsgər üçün nümunə olmalıdır. Rəis intizamı qoruyur, məsuliyyəti bölüşdürür, səhvləri düzgün qiymətləndirir, xidməti öyrədir, onu əsgərə aşılayır və qəbul etdiyi qərarların nəticələrinə görə cavabdehlik daşıyır. Belə yanaşma komandirin şəxsi heyət arasında nüfuzunun formalaşmasına və qarşılıqlı etimadın möhkəmlənməsinə şərait yaradır.

Hərbi liderliyin əsas xüsusiyyətlərindən biri şəxsi nümunədir. Komandirin tələbkarlığı onun öz davranışı ilə təsdiqlənmədikdə bu tələbkarlıq effektivliyini itirə bilər. Vaxtında xidməti yerində olmaq, nizamnamələrin tələblərini yerinə yetirmək, verilən tapşırıqlara məsuliyyətlə yanaşmaq, müəyyən olunmuş qaydaları düzgün tətbiq etmək və çətinliklər qarşısında soyuqqanlı davranmaq şəxsi nümunənin əsas göstəricilərindəndir. Şəxsi heyət komandirin dedikləri ilə etdikləri arasındakı fərqi tez hiss edir. Bu səbəbdən liderlik yalnız sözlə deyil, davranışla formalaşır. Sözdə deyilənlər, əməldə də öz təsdiqini tapmalıdır.

Komandirin digər mühüm keyfiyyəti qərarvermə bacarığıdır. Hərbi xidmət müxtəlif vəziyyətlərlə müşayiət olunur və komandir bəzən məhdud zaman, natamam məlumat və yüksək məsuliyyət şəraitində seçim etməli olur. Belə məqamlarda qərarın düzgünlüyü qədər onun vaxtında və operativ qəbul edilməsi də əhəmiyyət daşıyır. Bunun üçün komandir mövcud məlumatları təhlil etməli, mümkün riskləri qiymətləndirməli, alternativləri nəzərdən keçirməli və konkret vəziyyətə uyğun qərar verməlidir. Qərarvermə bacarığı yalnız sürətli seçim etmək deyil, nəticələri əvvəlcədən düşünmək və qəbul edilmiş qərarın məsuliyyətini daşımaq qabiliyyətidir. Bu keyfiyyətin də əsas açarları təcrübə, peşəkarlıq və dünyagörüşüdür.

Burada məsuliyyət anlayışı xüsusi əhəmiyyət kəsb edir. Komandirin səlahiyyəti artdıqca onun məsuliyyəti də artır. Uğurlu nəticəni öz şəxsi nailiyyəti kimi təqdim etmək asan ola bilər, lakin çatışmazlıqlar və uğursuzluqlar zamanı məsuliyyəti üzərinə götürmək əsl liderliyin göstəricilərindən biridir. Komandir səhvin səbəbini müəyyən etməli, onu təhlil etməli və eyni problemin təkrarlanmaması üçün müvafiq qabaqlayıcı tədbirlər görməlidir. Bu yanaşma şəxsi heyətdə məsuliyyətli davranışın formalaşmasına da müsbət təsir edir.

Ədalət və obyektivlik də hərbi liderliyin əsas dayaqlarındandır. Şəxsi heyətin idarə olunmasında eyni meyarların tətbiqi komandirə olan etimadı gücləndirir. Tələbkarlıq bütün hərbi qulluqçulara münasibətdə ardıcıl və əsaslandırılmış olduqda intizam daha sağlam mühitdə formalaşır. Komandir şəxsi münasibətləri xidmət tələblərindən ayırmağı bacarmalı, qiymətləndirmələrdə obyektivliyi qorumalıdır. Ədalətli münasibət, həmçinin kollektiv daxilində qarşılıqlı hörmətin möhkəmlənməsinə kömək edir.

Lakin hərbi liderlik yalnız intizam və tələbkarlıqdan ibarət deyil. Şəxsi heyətlə işləmək bacarığı da komandirin peşəkarlığının mühüm hissəsidir. Fərdlərin imkanlarını, hazırlıq səviyyəsini, güclü və zəif tərəflərini bilmək komandirə tapşırıqları daha düzgün bölüşdürməyə imkan verir. Bunun üçün komandir dinləməyi, izah etməyi və lazım gəldikdə düzgün istiqamət göstərməyi bacarmalıdır. Tələbkarlıqla hörmət arasında tarazlığın qorunması xüsusilə vacibdir. Çünki hərbi kollektivdə sağlam münasibətlər intizamı zəiflətmir, əksinə, onun şüurlu şəkildə qəbul edilməsinə şərait yaradır.

Digər mühüm keyfiyyət psixoloji dayanıqlıqdır. Gərgin vəziyyətlərdə komandirin emosional davranışı birbaşa şəxsi heyətə təsir göstərə bilər. Qeyri-müəyyənlik, vaxt məhdudiyyəti və yüksək məsuliyyət şəraitində komandirin özünü idarə etmə bacarığı vacibdir. Bu, emosiyaların tamamilə aradan qaldırılması deyil, onların qərarvermə prosesinə mənfi təsir göstərməsinə imkan verməkdir. Sakit və ardıcıl davranan komandir mürəkkəb şəraitdə şəxsi heyətin diqqətini əsas vəzifəyə yönəldə bilir.

Müasir hərbi mühitdə liderlik anlayışı davamlı inkişaf tələbi ilə də sıx bağlıdır. Hərbi texnologiyaların, idarəetmə üsullarının və döyüş yanaşmalarının dəyişməsi komandirin də öz biliklərini daim yeniləməsini tələb edir. Peşəkar komandir əldə etdiyi təcrübə ilə kifayətlənmir, yeni biliklər öyrənir, təlimlərdən nəticə çıxarır və tabeliyində olan şəxslərin hazırlığının yüksəldilməsinə çalışır. O, həmçinin təşəbbüskarlığı dəstəkləməli, şəxsi heyətin müstəqil düşünmə və düzgün qərarvermə bacarıqlarının inkişafına şərait yaratmalıdır.

Bütün bu xüsusiyyətlər bir-birindən ayrı deyil. Qərarvermə bacarığı məsuliyyətlə, tələbkarlıq ədalətlə, peşəkarlıq isə şəxsi nümunə ilə tamamlandıqda hərbi liderlik daha effektiv olur. Komandirin əsas vəzifələrindən biri yalnız tapşırığın icrasını təmin etmək deyil, eyni zamanda, qarşıya qoyulan məqsədə aparan prosesin düzgün təşkilinə nail olmaqdır. Bu baxımdan liderlik həm idarəetmə, həm də insan amilini nəzərə alan kompleks fəaliyyət kimi qiymətləndirilə bilər.

Nəticə etibarilə komandirin gücü yalnız onun rütbəsi və tutduğu vəzifə ilə müəyyən olunmur. Əsl liderlik verilən səlahiyyəti məsuliyyətlə həyata keçirmək, çətin məqamda düzgün qərar qəbul etmək, şəxsi heyətə nümunə olmaq və ədalətli idarəetmə mühiti yaratmaq bacarığında özünü göstərir. Komandir şəxsi heyətin qarşısında yalnız əmr verən deyil, həm də istiqamət göstərən, məsuliyyət daşıyan və etimad qazanan şəxsdir. Onun peşəkarlığı bölmənin fəaliyyətinə, liderlik keyfiyyətləri isə kollektivin birliyinə və dayanıqlığına təsir göstərir. Buna görə də hərbi liderliyin formalaşdırılması yalnız ayrı-ayrı komandirlərin deyil, ümumilikdə ordunun peşəkar inkişafının mühüm istiqamətlərindən biridir.

**Kapitan
Fuad CƏFƏROV
"Azərbaycan Ordusu"**

# Kağızın ixtirası insanların həyatında əsl inqilab oldu

*Sentyabr ayı payızın gəlişindən xəbər verir. Buludlu, tutqun hava depressiv əhval-ruhiyyə yarada bilər. Bu halların ən yaxşı dostu özünəməxsus qoxusu olan kitab və düşüncələrimizi yaza biləcəyimiz ağ vərəq ola bilər. Hansı peşə ilə məşğul olursunuz-sa-olun, mütləq kağızla işiniz olub. Bəs hazırda əlinizdə tutduğunuz 19 əsr yaşı olan kağızın yaranma tarixini bilirsinizmi? Necə hazırlanır bu barədə heç düşünmüsünüzmü?*




İnsan sivilizasiyasının inkişafında bəşəriyyətə yön verən kəşflər içində kağızın ixtirası və ilk kağız vərəqənin meydana gəlməsi xüsusi yer tutur. Kağızın meydana çıxmasıyla yazılı məlumatların qorunması, biliklərin nəsildən-nəslə ötürülməsi, elmin, mədəniyyətin və texnologiyanın inkişafı üçün yeni imkanlar açıldı. Kağızın ixtirası insanların həyatında əsl inqilab etdi.

Ən qədim kağız vərəqinin tarixi Çinlə bağlıdır. Tarixi mənbələrə görə eramızın 105-ci ilində çinli dövlət xadimi və alim Tsay Lun tərəfindən hazırlanıb. O dövrdə Çin imperiyasının sarayında müxtəlif yazı materiallarından istifadə olunsa da, Tsay Lun təcrübə edərək ağac qabığı, kətan parçası, köhnə balıqçı torları, bambuk lifi və müxtəlif bitki tullantılarının qarışığından incə və yüngül vərəqlər düzəltməyə nail oldu. Hazırlanma texnologiyası bir neçə mərhələdən ibarət idi. Bitki və tekstil materiallarının doğranıb suda qaynadılması. Alınan kütlənin əzilməsi və sıxılması, hazır kütlənin tor və ya bambuk süzgəcdən süzülməsi, nəm vərəqin süzgəcdən ayrılıb preslənməsi və qurudulması. Tsay Lun bu texnologiyanı təkmilləşdirib imperator sarayına təqdim etdikdən sonra kağızın istifadəsi sürətlə yayılaraq sarayda və elmi dairələrdə əsas yazı materialına çevrildi.

868-ci ildə Bah Tszenin müəllifliyi ilə ilk qədim kitab, VIII əsrdə "Paytaxt xəbərləri" adlı ilk gündəlik qəzet çapı da Çində yaranıb. Kağız ilk dəfə Çində ixtira olunsa da, sonrakı əsrlərdə ticarət yolları və müharibələr nəticəsində digər ölkələrə yayılmağa başladı. VII əsrdə kağız istehsalı texnologiyası Koreya və Yaponiyaya çatdı. Çinlə müsəlman dünyası arasında baş verən Talas döyüşündən sonra (751-ci il) çinli əsir ustalar vasitəsilə kağızın istehsalı texnikası Mərkəzi Asiyaya, Səmərqənd, Bağdad, Şam və başqa şəhərlərə keçdi. İlk kağız fabrikinin 794-cü ildə Bağdadda Harun ər-Rəşidin vəzirinin oğlu İbn Fəzil tərəfindən yaradıldığı ehtimal olunur. IX-X əsrlərdə ərəb ustaları kağız istehsalını təkmilləşdirdilər və onu Avropaya ötürdülər. XIII-XIV əsrlərdə İtaliya, İspaniya və Almaniyada ilk kağız emalatxanaları yaradıldı. Kağızın sürətli yayılması yazı mədəniyyətinə, elm və ədəbiyyatın inkişafına böyük təkan verdi. İslam dünyasında kağız üzərində Quran, elmi əsərlər və poeziya yazılırdı. Avropada isə kağızın kütləvi istifadə edilməsi çap texnologiyasının (Qutenberq mətbəəsi) icadına yol açdı.

Avropada ilk dövrlərdə kağız bir müddət perqamentlə paralel istifadə olunurdu. Ancaq XV əsrdən başlayaraq kağız həm ucuzluğuna, həm də praktiki keyfiyyətlərinə görə digər materialları arxa plana keçirdi. Bütün elmi, inzibati, ədəbi və ticarət sənədləri kağız üzərində hazırlanmağa başlandı. Tarixi mənbələrə görə, Azərbaycanda kağız istehsalına və ilk kağız vərəqlərinin istifadəsinə təqribən IX əsrin sonunda başlanılmışdı. Cənubi Azərbaycan ərazisində yerləşən Xunəc şəhərində kağız fabriki fəaliyyət göstərmişdi. Bu istehsal mərkəzinin adına görə sonralar həmin şəhər Kağızkunan (kağız hazırlayanlar mənasında) adlandırılmışdı. Azərbaycan ərazisində kağız istehsalı Avropanın əksər ölkələrindən (İtaliya, Almaniya, İngiltərə) xeyli əvvələ təsadüf edir. XIII əsrin sonunda görkəmli dövlət xadimi və alim Fəzlullah Rəşidəddin tərəfindən Təbriz yaxınlığında xüsusi kağız fabriki tikdirilmişdi. Gəncə, Təbriz, Şamaxı və Bakı kimi şəhərlərdə kağızdan geniş istifadə zəngin əlyazma nümunələrini meydana çıxardı. Xüsusilə miniatür və xəttatlıq sənətinin inkişafında kağız əsas rol oynadı. Əlyazma sənətində, dövlət sənədlərinin hazırlanmasında, ədəbi irsin qorunmasında əsas material oldu.

Kağızın kəşfi təkcə mədəniyyət və idarəçilikdə deyil, hərbi sahədə də böyük sıçrayışa səbəb oldu. Kağızın yüngül olması cəbhə xəttində əmr və məlumatların daha sürətlə daşınmasına şərait yaratdı. Gizli şifrələnmiş hərbi xəritələr və əmrlər məhz kağız üzərində rahatlıqla saxlanılır və lazım gəldikdə tez məhv edilirdi. Qədim Çində döyüşçülər xüsusi qətranla hopdurulmuş çoxqatlı sıxılmış kağızdan hazırlanan zireh geyinirdilər. Bu zireh poladdan daha yüngül, daha ucuz idi və oxlardan, eləcə də qılıncın kəsici zərbələrindən effektli qoruyurdu. Xüsusi texnologiya ilə hazırlanmış "Kağız Zirehlər" geniş tətbiq olunurdu. Təxminən 10-15 qat qatlanmış, yağlanmış və kip basılmış kağız oxlara, nizə zərbələrinə və hətta dövrün ilk odlu silahlarına qarşı metal zirehlərdən daha yüngül və kifayət qədər davamlı alternativ idi.

Çində barıtın kəşfindən sonra kağız hərbi sursatların hazırlanmasında əvəzsiz rol oynadı. İlk bambuk və kağız borulu "alov nizələri" və kağız korpuslu siqnal partlayıcı bombalar döyüş meydanlarında istifadə edilməyə başlandı. Çin ordusu kağız çərpələnglərdən düşmən düşərgələrinin məsafəsini ölçmək, gecə vaxtı siqnal vermək və ya küləyin istiqamətini müəyyən etmək üçün istifadə edirdi. Rus çarı I Pyotr XVIII əsrin əvvəllərində xüsusi olaraq "kartuz" kağızının istehsalı üçün kağız dəyirmanlarının tikilməsini əmr etmişdi. Bu kağızdan gəmi və səhra top mərmilərinin barıt yükü üçün kisələr (kartuzlar) düzəldilirdi. Bu kəşf XIX əsrin sonlarında artilleriyanı və atıcı silahları köklü şəkildə dəyişdi. XIX əsrdə metal gilizlər yaranana qədər atıcılar kağız kartriclərdən istifadə edirdilər. Burulmuş borucuğun



içərisinə barıt tökülür və güllə yerləşdirilirdi. Xammal qıtlığı yarandıqda kitablardan da istifadə olunurdu. Azot turşusu ilə kimyəvi emal edilmiş kağız sellülozası tüstüsüz barıta və partlayıcı maddəyə çevrilir. Əsgər kağızı dişləyib cırır, barıtı lüləyə tökür və kağızın qalan hissəsindən tıxac kimi istifadə edirdi.

İkinci Dünya müharibəsinin sonunda Yaponiya Sakit okean üzərindən ABŞ-a tərəf bomba daşıyan 10000-ə yaxın hava şarı buraxdı. Bu nəhəng şarların örtüyü ənənəvi möhkəm "vasi" kağızından əllə hazırlanmışdı.

Kağız müasir orduların logistikasını, xəritəçəkmə dəqiqliyini və hərbi strategiyaların idarə olunmasını kökündən dəyişərək hərb tarixinin ən mühüm dayaqlarından birinə çevrildi. Avstraliyanın "SYPAQ" şirkəti mum hopdurulmuş qalın kartondan hazırlanmış birdəfəlik pilotsuz uçuş aparatları yaradıb. Havada 3 saat qalır, 3 kq-dan-5 kq-dək yük götürə bilir. Bu dronlar metal hissələrinin azlığı sayəsində hava radarlarına düşmür, praktiki olaraq görünməzdirlər.

Yaponiya kartondan hazırlanmış, ucuz və yüngül dron modeli - AirKamuy 150-ni təqdim edib. Maksimum sürəti saatda 120 km, uçuş müddəti isə 80 dəqiqəyə qədərdir. Təxminən 80 kilometr məsafə qət edə bilən bu dronlar həm sürü əməliyyatlarında, həm də tibbi vasitələrin daşınmasında istifadə oluna bilər. ABŞ-də təhlükəli zonalara kəşfiyyat və humanitar yardım, ərzaq, tibbi və digər yüklərin daşınmasını həyata keçirən təyyarədən atılan pilotsuz planerdən istifadə olunur. Oriqami prinsipi ilə hazırlanan sukeçirməz bərk karton və skoçdan düzəldilmiş pilotsuz uçuş aparatı birdəfəlik istifadə üçün nəzərdə tutulub. Aparatın mühərriki və pəri yoxdur. 150 kilometr məsafəni uça bilir, 1 kiloqram yükdaşıma xüsusiyyətinə malikdir. Daxilində mini-kompüter və sensorlar quraşdırılıb, uçuş istiqaməti dəqiq eniş üçün karton qanadların əyilməsi ilə tənzimlənir. Missiyanı yerinə yetirib yükü atdıqdan sonra tam məhv olur ya da parçalanaraq ətraf mühitə yayılır.

Son onilliklərdə elektron texnologiyaların inkişafı kağız istehlakı və kağız sənayesində yeni mərhələnin başlanmasına səbəb olub. Hər il dünyada 350 milyon tondan artıq kağız istehsal edilməklə kağız sənayesi iri texnoloji sahəyə çevrilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 10-da paytaxtın Qaradağ rayonunda kağız məhsulları istehsal edəcək müəssisənin açılışını edib. On bir hektara yaxın ərazidə yerləşən müəssisədə Almaniya, İtaliya və Türkiyənin müasir və yüksək avtomatlaşdırılmış istehsal texnologiyaları tətbiq olunacaq.

Kitablar, dəftərlər, broşürlər, etiketlər, vizit kartları, afişalar, fayllar kimi məhsulların qablaşdırılması, sənədləşdirilməsi, arxivləşdirilməsi, surətinin çıxarılması və çap edilməsində istifadə edilən kağız yoxluğu gündəlik həyatımızı qeyri-mümkün edə bilən bir materialdır. VII əsrdən başlayaraq gündəlik həyatımızı qeyri-mümkün edə bilən kağız pul vahidi, istiqraz kimi çox qiymətli kağız növü də var ki, bu da növbəti sayda geniş mətnin mövzusu ola bilər.

**Sevda AŞIROVA**
**"Azərbaycan Ordusu"**

## Komitə sədri: Müdafiə Nazirliyinin hərbi qulluqçularının sosial təminatında qeyri-bərabərlik ortadan qalxacaq

*Müdafiə Nazirliyinin hərbi qulluqçularına münasibətdə təklif edilən layihə qəbul edildikdən sonra pensiya məbləği ilə təminat xərcliyi arasındakı əlaqə aradan qalxacaq. Bununla da şəxsin hərbi xidmətdən tərxis olunduğu günə təminat xərcliyi barədə qurumdan məlumatların təqdim olunması zərurəti olmadan fərdi şəxsi hesabında qeydə alınmış pensiya kapitalı və tutmuş olduğu rütbə əsas götürülməklə pensiya məbləği formalaşacaq.*

AZƏRTAC xəbər verir ki, bunu Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə", "Əmək pensiyaları haqqında", "Hərbi qulluqçuların statusu haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Əmək pensiyaları haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" 2023-cü il 22 dekabr tarixli 1074-VIQD nömrəli və "Diplomatik xidmət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edərkən deyib.

O bildirib ki, sığorta mexanizmi gücləndirilməklə fərdi şəxsi hesabda qeydə alınmış pensiya kapitalına əsasən onlar üçün ümumi əsaslarla pensiya təyin edilərək ödənilməsi davam edəcək. Eyni zamanda, pensiya məbləği ilə yanaşı, indiki qanunvericilikdə nəzərdə tutulmuş əmək pensiyalarına qulluq stajına görə əlavə deyil, aylıq pensiya əlavəsi təyin ediləcək.

"Aylıq pensiya əlavəsinin məbləği hər rütbələr üzrə müəyyən olunacaq. Müdafiə Nazirliyinin hərbi qulluqçularının sosial təminatında qeyri-bərabərlik ortadan qalxacaq. Mövcud qanunvericiliyə uyğun olaraq ordumuzun hərbi qulluqçularının pensiya təminatında xüsusi güzəştlər müəyyən edilib və bu yanaşma aparılan islahat çərçivəsində də qorunub saxlanılıb. Bu məqsədlə layihədə şərti pensiya kapitalı mexanizmi öz əksini tapıb. Yeni mexanizm sözügedən hərbi qulluqçuların pensiya kapitallarını optimallaşdırmağa və onlara əmək pensiyasının məhz bu şərti pensiya kapitalı nəzərə alınmaqla daha səmərəli şəkildə təyin edilməsinə imkan verəcək", - deyə komitə sədri vurğulayıb.

*Könlüm şeir istəyir*

# Vətənin, torpağın tərənnümü sözün qüdrəti ilə yaşayır

Azərbaycan poeziyasında Vətənə, torpağa sevgi, elə, obaya bağlılıq duyğularını, düşüncələrini, qürur, fəxarət hisslərini sözün qüdrəti ilə tərənnüm edən və yaşadan tanınmış şairlərimiz, söz sənətimizin nümayəndələri var. O sənət nümunələrinin əsas qayəsini və əsas süjet xəttini milli-mənəvi dəyərlərimiz - Vətənə sevgi, doğma torpağa bağlılıq, xalqımızın qəhrəman oğullarının möhkəm iradəsi, döyüşkənliyi, fədakarlığı təşkil edir. Poeziyamızda vətənpərvərlik mövzusu hər zaman aktual olmaqla, zəngin ədəbi irsimizdə xüsisi yer tutur. Xalqımızın qürur, fəxarət tarixi şeirin dili ilə söz sənətimizdə qorunur, nəsildən-nəslə ötürülür.

Bu dəfə "Könlüm şeir istəyir" rubrikasında poeziyamızın görkəmli nümayəndələri, Azərbaycanın Xalq şairləri Səməd Vurğun və Fikrət Qoca şeiriyyətinin zəngin sənət incilərini qəzetimizin oxucularına təqdim edirik. Söz çələngində döyüşə gedən oğula ana nəsihəti, doğma yurd yerlərinə qayıdış, bayatılarda əzizlənən, həsrət yüklü Ana torpağımız, müqəddəs ocaqlarımız, şəhidlərimizin sevgi, məhəbbət duyğuları ifadə olunur. Şeirin dili ilə ifadə olunan hər bir kəlmə insan qəlbini titrədir, onun duyğu və hisslərinə təsir gücünü artırır. Əyninə əsgər paltarı geyinən döyüşçünü Vətənin müdafiəsində möhkəm dayanmağa, düşmənə qarşı daima qətiyyətli olmağa çağırır...

**"Azərbaycan Ordusu"**

## Səməd Vurğun

### Ananın öyüdü

Geyib əsgər paltarını,
silahlandı qəhrəman,
Onun polad sinəsinə sığışmadı ürəyi.
Dayan! - deyib, yaxın gəldi,
öpdü onun alnından
Yay gününün xoş səhəri,
bir də dağlar küləyi.
"Ana! Getdim salamat qal" - deyib
öpdü qarını.
Ana igid balasına açdı öz qollarını,
Üz-gözündən öpə-öpə
bağrına basdı onu,
Ana yurdun bu qəhrəman,
bu namuslu oğlunu.
Dedi: "Oğlum, göz bəbəyim,
sən ey ömür çiçəyim!
Tarixlərin şahididir mənim
bu ağ birçəyim.
Görürəm ki, qəhrəmansan,
sənə halaldır südüm.
Qulağında yaxşı qalsın,
mənim sənə öyüdüm:
Biz sənsiz də dolanarıq,
uğur olsun yoluna,
Qılıncını çalan zaman
qüvvət gəlsin qoluna!
Sən düşmənin qabağında
igid tərpən vüqarla,
Tüfəngini təmiz saxla, atını da tumarla!
Öz yerində olsun gərək igidin yar-yarağı,
Hər gün yeni bir zəfərlə
gəlsin onun sorağı.
İgid balam! Hərçəndi ki,
öz ananam mən sənin,
Çörəyilə böyümüsən
bizim ana Vətənin.
Bizim ellər Koroğlular,
Çapayevlər yurdudur,
Hər nəfəri gülləbatmaz,
topdağıtmaz ordudur.
Payız vaxtı bağçamızın
heyvaları dəyəndə,
Şaftalılar şirələnib budağını əyəndə
Göndərərəm sovqatını -
sənin də öz payını,
Sən də artır öz əlinlə zəfərlərin sayını.
Get, düşmənin qabağında
igid tərpən vüqarla,
Tüfəngini təmiz saxla, atını da tumarla".
Əsgər artıq yola düşdü,
dağ tərpəndi yerindən,
Günəş yaydı şöləsini
Vətənin göylərindən.
Ana baxdı öz oğluna,
su da səpdi dalınca...
Şair qəlbi bu səhnədən ilhamını alınca,
- Yaşa - dedi, - ey qəhrəman!
Yaşa - dedi, - ey Vətən!
Sonra şair dodaqları öpdü ana əlindən.

## Fikrət Qoca

### Qarabağ bayatıları

Düzüm-dağım Qarabağ,
Cənnət bağım Qarabağ!
Biz odlar övladıyıq,
İlk ocağım - Qarabağ!
Qarabağ - böyük bağdı.
Dağı da - böyük dağdı.
Qarabağ bizim olub,
Bizim də olacaqdı.
Qarabağ bir cahandı,
Qarabağ canda candı.
Qarabağın anası
Böyük Azərbaycandı.

### Aprel şəhidləri

Bizi ilk qarşılayan
Aprel şəhidləriydi,
Bu Cocuq Mərcanlının
Ən müqəddəs yeriydi.
Ayağına gül qoyduq
Şəklinə baş əydik.
Ay oğul, təki belə
Toyunuza gələydik.
Daim gənc qalarsınız
Göz aydın, üzü gülər,
Daim ayağınızı
Öpəcək qızılgüllər.
Əsgər gedən oğullar
Burdan gedər döyüşə.
Sevən yaşıdlarınız
Bura gələr görüşə.
Gələnlər gedəcəklər
Kimi ucalacaqdı,
Kimi qocalacaqdı,
Kimi zəfər çalacaq!
Düşməndən intiqamı
Dönə-dönə alacaq!
Aprel döyüşçüləri
Belə cavan qalacaq.
Onlar zamandan güclü,
Dövrandan üstündülər.
Onlar gecə aydılar.
Gündüzlər də gündülər...
Eh... Bunlar hamısı sözdü,
Şəhidlər ölümsüzdü!

### Şuşa Məscidi

Cocuq Mərcanlıya
Şuşadan qonaq gəlib.
Cocuq Mərcanlının ağ gününə
Geyinib dümağ gəlib.
Şuşanın məscidi namaza durub.
Əllərini Allah dərgahına qaldırıb.
Qarabağa azadlıq diləyir.
"Allahım köməyimiz ol!" - deyir.
Azanın səsi
Haqqın qapısını döyür.
Məscid onun üzüdü,
İçi insan içidi.
Bu, Şuşadakı Məscidin özüdü,
Əsgərlərimizə gəlmiş elçidi.
Gəlin bizi alın! - deyir.
Gəlin zəfər çalın! - deyir.
Azərbaycanın ən uca Şuşa səhnəsindən,
"Qarabağ Şikəstəsi"nin səsindən
Ən uca zənguləsindən
Yadları salın!
Qarabağı alın! - deyir.
Məsciddə görüş
Ruhu titrədən bir görüşdü.
Ordumuz ayağa qalxsa
Şimşək kimi çaxsa
Ordumuz üçün ən asan iş döyüşdü.
Qalanı tarix yazır.
Hər azərbaycanlının içində
Bir əsgər var
Döyüşə hazır!

### Cocuq Mərcanlıya məhəbbət qayıdır!

Bir zaman Cocuq Mərcanlıda iki cavan
İlahi eşqin iki yeniyetmə əsiri,
Kənddə hamıdan gizlədirdi
Eşq adlı bu gözəl sirri.
Ataları nə üstəsə savaşmışdı.
Həm erməni ilə atışırdılar,
Həm də iki qonşu
Bir-birinə cəbhə açmışdı.
Cavanlar bu nifrət yağmuru altından
Öz Leyli Məcnun eşqini götürüb,
Bir-birinə qoşulub qaçmışdı.
Zaman girdi araya...
Bəzi yaraya məlhəm qoydu,
Duz basdı bəzi yaraya.
Xəyal etməklə cib dolmur,
Tez-tez yağəppəyi deməklə
qarın doymur.
"Canı canan diləmiş" - deməklə
Varislər doğulmur.
İndi o qaçqın yeniyetmələrin,
bu yetkin yaşında,
Bir düzün colma-cocuq var
süfrəsi başında
Hər biri dahiyanə bir əsərdi.
Vətən çağırsa maşallah
bir taqım əsgərdi.
Bu uşaqlar
Leyli-Məcnun eşqindən doğulmuş
İşıqlardı, işıqlar...
İndi Cocuq Mərcanlıya
Köçməyə yığışıblar.

Qəzəb, kin, nifrət müharibələri salandır.
Qalan bəhanələr yalandır.
Sonda eşq, məhəbbət, mərhəmət
Zəfər qalandır,
Xərabələrin yerində şəhər salandır.

### Lələtəpə

Dədəm Qorqudun dövründə
Laləli bir təpə idim,
Sonradan lələ olmuşam,
Bir Lələtəpə olmuşam.

Başımın üstündə Allah
Əlimdə üçrəngli bayraq.
Gecə, gündüz, axşam, sabah,
Ana yurda keşikçiyəm.

Xalqın dağ olmuş səsiyəm,
Mən igidlər nərəsiyəm.
Mən lələlər ləlsiyəm.
Məktəblərin zəng səsiyəm.

Dağam, dağlar balasıyam,
Mərcanlılar qalasıyam,
Hələ mənim çox işim var,
Çox zəfərlər çalasıyam.

Yurdun Lələ dayağıyam,
Elin Lələ bayrağıyam,
Əsgərlərin səngəriyəm,
Düşmənlərə göz dağıyam.

*Danışır foto*

# Ölüm qatarından həyata doğru



(Əvvəli 1-ci səhifədə)

Lakin müharibənin son günlərində hadisələrin gedişi dəyişdi. Müttəfiq qüvvələri Almaniya ərazisində sürətlə irəliləyirdi. Elə bu zaman qatarın hərəkəti müxtəlif səbəblərdən pozuldu və nəhayət, Farslebən yaxınlığında dayandı. Bu zaman ABŞ-nin 30-cu piyada diviziyasının bölmələri əraziyə çatdı. 743-cü tank batalyonunun iki tankı qatarın olduğu yerə yaxınlaşdı. Qatarı qoruyan alman əsgərləri müqavimət göstərmədən təslim oldular. Vaqonlarda isə aclıqdan və xəstəlikdən taqətdən düşmüş insanlar vardı. Foto da məhz həmin azadlığın ilk anlarını göstərir.

Ön plandakı qadın bir əli ilə balaca qızın əlindən tutur, digər əli isə sanki qarşıda açılan yeni həyata uzanır. Onun üzündə həm sevinc, həm də təəccüb hisslərini aydın şəkildə görmək olur. Qadının addımlarında tələskənlik var. Sanki o, illərdir gözlədiyi azadlığa çatmaqdan qorxur ki, birdən bu an da yoxa çıxar.

Balaca qızın üzündə isə tamam başqa hisslər görünür. O, böyüklər kimi baş verənləri dərk edə bilməzdi. Amma onun baxışlarında yaşadığı dəhşətin izlərini görmək mümkündür.

Fotodakı digər insanlar da müxtəlif istiqamətlərə doğru hərəkət edirlər. Kimi qaçır, kimi əllərini açır, kimi isə sadəcə dayanaraq baş verənləri anlamağa çalışır. Hər birinin üzündə fərqli hiss var. Amma həmin anda hamısını birləşdirən bir məqam var idi: onlar artıq azad idilər.

Bu fotonun maraqlı tarixçəsi də var. Uzun müddət şəkildəki qadının və uşağın kim olduğu məlum deyildi. Sonrakı araşdırmalar nəticəsində qadının Şlima Spitzer olduğu ehtimal edildi. Uşağın isə onun qızlarından biri ola biləcəyi bildirildi. Beləliklə, foto sadəcə naməlum insanların görüntüsü olmaqdan çıxdı və konkret bir ailənin müharibə tarixinin izinə çevrildi.

Bu görüntünün başqa bir mühüm tərəfi də odur ki, burada müharibənin dağıdıcı mənzərəsi deyil, onun içindən çıxan həyat görünür. Şəkildə dağıdılmış şəhərlər, döyüş meydanı və silahlar yoxdur. Əvəzində bir ana və uşaq var. Onların qaçdığı istiqamət isə ölümə yox, həyata doğrudur.

Həmin gün azad edilən insanların hamısı müharibədən sağ çıxmadı. Bəziləri aclıq, xəstəlik və uzun müddət davam edən ağır şərait səbəbindən azadlıqdan sonra da həyatını itirdi. Buna baxmayaraq, Farsslebendəki hadisə minlərlə insan üçün ölüm qatarının sonu oldu.

Bu gün həmin fotoşəkilə baxarkən yalnız 1945-ci ilin bir anını görmürük. Bir qadının əlindən möhkəm tutduğu uşağı, arxadakı insanları və onların üzündəki ifadələri izlədikcə müharibənin insan həyatına vurduğu zərəri də hiss edirik. Eyni zamanda, anlayırıq ki, bəzən bir neçə addım insanın bütün taleyini dəyişə bilər.

Bu foto tarixə yaşanan uzun və dəhşətli hadisələrin xoş bir anı kimi düşüb. Amma həmin anda görünən sevinc, qorxu və ümid bu gün də öz təsirini itirməyib. Çünki foto bizə sadə, lakin çox mühüm bir həqiqəti xatırladır: azadlığa doğru gedilən hər addım, hər yol bəzən insanın həyatındakı ən qiymətli hədiyyədir.

**Hüsniyyə NƏSİROVA**
**"Azərbaycan Ordusu"**

Kapitan Eminov Şirxan Məhəmməd oğluna verilmiş MN № 0067552 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Hətəmi Vüqar İlqar oğluna verilmiş MV № 113348 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Redaktor**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefon**
Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatı üzrə növbətçisi:
(012) 404-76-22

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
2 saylı xəzinədarlıq
Kod: 200189
VÖEN: 1500444791

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
Sevinc QULİYEVA

Lisenziya № 361
Sifariş № 786
Nüsxə 3653